# Azərbaycan və türk nağıllarında alma motivi

*(Əvvəli ötən sayımızda)*

Bütün ağsaqqalları yığıb bunun sirrini öyrəndi. Padşah almanın yarısını özü yedi, yarısını da arvadına yedirtdi. Beləcə də, onların oğlu oldu. "İbrahim" nağılında isə Məhəmməd və Əhmədin uşağı olmurdu. Onlar atlarını minib gəzib gəlib bir bulağın yanında dayandılar və hərəsi bir ovuc su götürmüşdü ki, bulağın gözündən bir dənə qıpqırmızı alma çıxdı. Onlar almanı yarı böldülər və arvadları ilə bölüb yedilər. Əhmədin oğlu, Məhəmmədin isə qızı oldu. Almanın vasitəsilə uşaq sahibi olma motivinə biz həm də "Ölü Məhəmməd", "Soltan İbrahim", "Şəms-Qəmər", "Padşah oğlu", "Pəri xanımın nağılı", "Yusiflə Sənubər", "Uşax pəhlivan" və s. nağıllarda da rast gələ bilərik.

Bir dərvişin nağıllarda övladı olmayan cütlüklərə bir alma verməsi və onların bu almanı yeməsi ümumi bir motivdir. "Melikşah" nağılında uşaqsız padşaha və arvadına bir dərviş kəramətli bir alma verir və bu almanı yeyəndən sonra bir oğlan uşağına sahib olacaqlarını söyləyir. Dərvişin padşaha və arvadına alma qabıqlarını atlarına yedizdirmələrini tövsiyə etməsi də maraqlı bir detaldır. Çünki alma qabığını yeyən atın da balası olur. Dərvişin verdiyi alma ilə bir oğlan uşağına sahib olunarkən, alma qabıqları ilə də atın balası olar. S.Sakaoğluna görə, bu at əslində oğlanın gəzintisi üçün olan at olacaq.

Yozgatın Yıldızeli mahalında danışılan "Kösenin ihaneti" adlı nağılda Kösenin fikrini qarışdıran padşahın oğlu kralın 40 il əvvəl ölən oğlu və qızını diriltmək üçün səmadan gətirdiyi alma ilə onlara abı-həyat gətirir. Suyu qəbirlərin üstünə tökən kimi cəsədlər 40 il əvvəl olduqları hallarına qayıdırlar. Oğlan bunların ağızlarına alma suyu səpir və onlar yenidən canlanırlar. Burada abı-həyatı çürümüş cəsədləri əvvəlki vəziyyətinə gətirməyə kömək edərkən, dirçəliş və dirilmə alma ilə təmin edilir. Bu baxımdan alma, abı-həyatdan daha təsirli bir xüsusiyyətə malikdir. Ancaq burada almanın alma şirəsi ilə əvəz olunması da diqqət çəkir. Alma suyu alma sirkəsi kimi istifadə edilə bilər. Almanın ölən insanı yenidən canlandırma özəlliyi "Şahzadə Əbülfəz" nağılında da yer alır.

Düşməndən qorunmaq üçün sehr-cadu oxuyub cildini dəyişmə motivləri həm Azərbaycan, həm də Türkiyə nağıllarında mövcuddur. Məsələn, "Qorxma ağacda almalar dil açıb deyəcəklər ki: "Məni dərdilər, səs gələcək: "kim dərdi". Deyəcək ki, "ağac", ağac ağacı dərməz". Bu kimi sözlər eşidəcəksən, qulaq asma, çıx gəl! İbrahim tilsimi oxuyub oldu quş, qanad çalıb qalxdı göyə, gəlib çatdı həmən yerə". "Əbülqasım" nağılında da cilddəyişmə motivi vardır. Əbülqasımın cibindən çıxardığı iki almanı oxuyub gül, iki qul eləməsinə rast gəlinir. "Ax-vax" nağılında dərviş cibindən bir alma çıxarır, bir əfsun oxuyub almaya piləyir və alma dönüb nazənin bir qız olur. Dərviş qızla bir az danışır, sonra başını qoyub yatır. Qız da cibindən bir alma çıxarıb bir əfsun oxuyub oğlan elədi. Dərviş oyanmaq istəyəndə onu oxuyub alma elədi, cibinə qoydu. Dərviş də oyanıb qızı alma elədi. Araşdırıcılar nağıllardakı fərqli süjetlərdə rast gəlinən cilddəyişmələrin, çevrilmələrin mifdən keçməsi, qədim inamlardan qaynaqlanması fikrini irəli sürürlər. E.Tursunov hesab edir ki, adam o dünya sakinləri ilə kontakt nəticəsində cildini dəyişir, eybəcər şəklə, o dünya sakinlərinin şəklinə düşür.

Helimoğlu Yavuzun Diyarbəkirdən topladığı "Şato" adlı nağılında, xəstə arvadının meyvə istəməsindən sonra bir qalaya gedən ər, qala bağçasında bir ağacdan alma qopararkən cadugər tərəfindən tutulur. Cadugərin "Almalarımı oğurlamaqdan utanmırsan?" sualının cavabında arvadının xəstə olduğunu, hər gün meyvə istədiyini, bu almaları götürsə, bəlkə yaxşılaşacağını söyləyir və ondan bir neçə alma qoparmağa icazə verməsini xahiş edir. Cadı deyir ki, yaxşı, sənə iki alma verəcəyəm. Bunlardan birini sən ye, arvadına da digərini ver. Bu almaları yedikdən sonra iki uşağınız olacaq. Bunlardan birini gətirib qalaya qoyacaqsan. Əgər uşağın birini verməzsən, başınıza böyük bəlalar gələcək, xəbərdar olun. Kişi qızlardan birini gətirəcəyinə söz verir və almalar ilə evə qayıdır. İki almanın birini özü yeyir, digərini arvadına yedizdirir. Sonra iki gözəl qızı dünyaya gəlir. Birinin adını Dəniz, digərininkini isə Gül qoyarlar. Kişi qızlarından birini cadugərə verməyə qıymaz. Ancaq cadugər hər gecə kişinin yuxusuna girir və vədini xatırladır, qızlardan birini qalaya gətirməsini istəyir. Ata, sarı saçlı və mavi gözlü beş yaşındakı qızlarından biri olan Dənizi qalaya aparır. Buna bənzər bir vəziyyəti biz Demirin topladığı "Ahmet ile Mahmut" nağılında da görürük.

Türk nağıllarında almanın cavanlaşdırma funksiyasında da işlənildiyi görülmüşdür. "Balık neden güldü" nağılında padşah leyləyə yaxşılıq edir. Bunun qarşılığında leylək bir toxum qoyur və əkəndə onun alma olduğunu öyrənirlər. Ancaq bu alma böyük olur. Bu almalardan biri zəhərli olar deyə yaşlı bir insana yedirdilər. Yaşlı kişi iyirmi yaşında cavan bir oğlan olur. Bu zaman bu alma ağacının həyat alması olduğunu başa düşürlər. Almanın yaşlı bir adamı cavanlaşdırması bir dəyişiklik nümunəsidir. Burada almanın mənbəyi vurğulanmalıdır. Bu nağılda alma toxumunu leylək gətirir. Bu qədimdə türklərin leyləyi müqəddəs hesab etmələrini ifadə edir. Bundan əlavə, almanın doğum motivi olaraq bir Xızır, pir və ya dərviş tərəfindən gətirilməsi müqəddəs bir keyfiyyətə sahib olduğunu göstərir. İslamla birlikdə ağacın müqəddəs keyfiyyəti tədricən yoxa çıxsa da, mədəni irsimizdə almanın bəzi detalları və funksiyaları ilə arxaik elementləri günümüzə gəlib çıxmışdır.

Anadolu ərazisində danışılan "Zümrüdüanka kuşu" nağılının Azərbaycan variantı olan "Məlikməmməd" adlı nağılda padşahın bağında bir alma ağacı varmış. Bu ağac birinci gün çiçək açar, ikinci gün çiçəyini tökərmiş, üçüncü gün də bar verərmiş. Bu almaları kim yesəymiş, cavanlaşıb on beş yaşında oğlan olurmuş [3,s 214-215]. M.H.Təhmasib "Əfsanəvi quşlar" məqaləsində ilk növbədə "Məlikməmməd" nağılından da söhbət açmışdır. "Nağılların epik məna aləminə dərindən bələd olan alim "Məlikməmməd" nağılındakı alma obrazına, haqlı olaraq, mifoloji-dini mənası olan surət kimi baxmışdır. O, beləliklə, insana əbədi həyat verir, heç şübhəsizdir ki, bu alma qədim Midiya dini fəlsəfəsində xeyir Allahı olan Ahurə məzdanın Allahlar məkanı müqəddəs Berezant dağında əkmiş olduğu həyat və əbədiyyət ağacının sonralar müəyyən dəyişikliklərə uğramış təmsilidir".



***(Davamı var)***

***Aytac ƏFƏNDİZADƏ,***
***Bakı Dövlət Universiteti,***
***magistrant***